Yaddaşlarda həm duyğusal fəhm, həm də poeziya gerçəkləri yaşadan insanlar bir qədər istiqanlı və vətənsevər olurlar. Bu, zaman-zaman sınaqdan keçib və bu gün də özünü labüd şəkildə göstərir. Açığı, Firdovsi Sultanın da yaradıcılığında, xüsusən də şair Müzahim İsmayılzadənin redaktorluğu ilə 2022-ci ildə nəşr olunmuş «Qızıl qala qəhrəmanları» adlı kitabında biz bu notları aydın görürük. Kitabda, annotasiyadan da göründüyü kimi, erməni-daşnak dəstələrinin 1918-1920-ci illərdə azərbaycanlılara qarşı törətdikləri soyqırım dəhşətləri, daşnaklara qarşı mübarizə aparan Mustafa ağa, Məşədi Mehralı, Qaçaq Mehdinin və digər qəhrəman oğulların Vətən sevgisindən bəhs olunur, müəllif onların qəhrəmanlıqlarını poetik səciyyə ilə obrazlaşdırır, yaddaşlara köçürür.




Əlbəttə, böyük bir tarixi hadisəni bir-iki şeirə sığışdırmaq müşkül məsələdir. Bəlkə də bu səbəbdən, Firdovsi Sultan oxucuya çatdırmaq istədiyi mənanı poema şəklində xarakterizə edib, hadisə və prosesləri tarixi aspektdə qabardıb.

Kitabda oxucu üçün tarixi həqiqətlər əks etdirən anlara diqqət yetirək:

29-un qışı çox ağır,

# Qəhrəmanlığa həsr olunmuş poetik nəğmə

Göydən yerə lopa-lopa qar yağır.
Budur, Əsgər ağa, Məcid, Mehrəli
Yığıbdır başına yurdsevərləri,
Bu, Əsgər ağadır, dörd oğlu, o da,
Sipər eləyirlər canını yurda...

Poemada təsvir olunan dövr 1918-1920-ci illəri əhatə edir. Bəllidir ki, o, dövrdə torpaqlarımıza qarşı dəfələrlə təcavüz etmiş erməni daşnaklarına müxtəlif bölgələrdən mübarizəyə qalxmış qeyrətli oğullarımız çətin şəraitdə - dağlarda, təpələrdə məskən qurmaqla Vətən üçün əsl dayağa çevrilmişdilər. Kitabda adları hallanan qəhrəmanlar da həmin oğulların sırasındadır və onların sayəsində Gədəbəyin bir sıra əraziləri erməni zülmündən qurtula bilmişdir. Firdovsi Sultan o qəhrəmanları duyğu çələnginə bükub, öz könül aynasının işığı ilə onları isidib. Onun poemasında o illərin qoynunda pərvaz edən acı və şirin xatirələr çözələnir. Şairin vətənpərvər duyğularının sehrində azan oxucu həqiqəti anlayır və başa düşür ki, erməni daşnak dəstələri həmişə xalqımıza qarşı soyqırım siyasəti yürüdüb. O zamanlar doğma Qarabağda cərəyan edən hadisələr, Qarabağətrafı rayonlarda gedən anlaşılmaz siyasət də bu məqsədin bir davamı olub. Bu mənada, oxucu Firdovsi Sultanın vətənpərvər duyğularını bir xatirə çələngi kimi yaddaşlarına hopdurur, öz qayəsini «Qızıl qala qəhrəmanları» poeması ilə bir daha aydın ifadə edir. Əlbəttə, kitab boyu biz müəllifin narahat könül dünyasının sakit pıçıltılarını hiss edirik və oxucu bu səssizlikdə çılğın bir haray da görür...

Yurd, el-oba, doğma ocaq motivləri də şairin poemada əks etdirdiyi səciyyələrdir. O, bütün hisslərində duyğularını işığa bükub və o işığın hənirində yurd-yuva salxarı tapa bilib. Həmçinin, onun bu kimi qaynar ruhlu misralarında bir Vətən ovqatının coğrafiyası, tarixi və etimologiyası öz əksini tapır. Biz bu poemada Firdovsi Sultanın özünün də əsl insan-şəxsiyyət qayəsini, diqqət və qayğısını poetik dillə duyur, onun nə qədər mənəviyyat dəyərlərinə örnək verdiyini, diqqət ayırdığını görürük.

Bir sözlə, «Qızıl qala qəhrəmanları» poeması bir tarixi andır və oxucu burada həyatın keşməkeşli anları ilə üz-üzə qalır.



*Hikmət*
**Məlikzadə**
*prezident mükafatçısı*